**Seçki qanunvericiliyini kobud surətdə pozduqlarına görə Bakı şəhəri Yasamal rayonunun, Hacıqabul və İmişli rayonlarının İcra hakimiyyəti başçılarının tutduqları vəzifədən azad edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasının Milli Məclisinə 2000-ci il noyabrın 5-də keçirilmiş seçkilər zamanı seçki prosesinə qanuna zidd müdaxilə etdiklərinə, seçicilərin öz iradəsini azad və sərbəst ifadə etməsinə maneçilik törətdiklərinə və seçki komissiyalarının fəaliyyətinə təzyiq göstərdiklərinə görə Bakı şəhərinin Yasamal rayonu İcra hakimiyyətinin başçısı Arif Ağaqulu oğlu Ağayev, Hacıqabul rayonu İcra hakimiyyətinin başçısı Ağababa Qasım oğlu Qasımov və İmişli rayonu İcra hakimiyyətinin başçısı Əli Abbas oğlu Məmmədov tutduqları vəzifədən azad edilsinlər.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 27 noyabr 2000-ci il
579

Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 30 noyabr, № 11.- S.4684.